Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Aİ ombudsmanı Zelenski ilə qapalı yazışmalara görə fon der Lyayeni araşdırır

4 dəqiqə öncə




Ursula fon der Lyayen və Volodimir Zelenski

Avropa İttifaqının (Aİ) ombudsmanı Tereza Anyinyu Avropa Komissiyasının sədri **Ursula fon der Lyayen**ə qarşı rəsmi araşdırmaya başlayıb. Araşdırmaya səbəb Komissiyanın Ukrayna prezidenti **Volodimir Zelenski** və digər Avropa liderlərinin daxil olduğu qapalı çatdakı yazışmalara çıxış icazəsi verməkdən imtina etməsidir. Bu barədə "Berliner Zeitung" məlumat yayıb.

Həmin qapalı qrupda Almaniya kansleri **Fridrix Merts**, Fransa prezidenti **Emmanuel Makron**, İtaliyanın baş naziri **Corca Meloni** və Böyük Britaniyanın baş naziri **Kir Starmer** də yer alıb.

Araşdırma yazışmaların məzmunu ilə deyil, Avropa Komissiyasının həmin mesajları açmaqdan imtina etməklə şəffaflıq qaydalarını mümkün şəkildə pozması ilə bağlıdır.

Çatın mövcudluğu bu ilin yanvarında məlum olub. Bundan sonra Niderlandın "Follow the Money" araşdırmaçı nəşri yazışmalara çıxış tələb etsə də, rədd cavabı alıb. Avropa Komissiyası materialların dərcinin Aİ-nin üçüncü ölkələrlə beynəlxalq münasibətlərinə zərər vura biləcəyini bildirib. KİV-in məlumatına görə, yazışmalarda digər məsələlərlə yanaşı, Avropa liderlərinin ABŞ prezidenti **Donald Tramp**la qarşılıqlı fəaliyyəti də müzakirə olunub.

Araşdırmanın bir neçə ay davam edəcəyi gözlənilir. İyulun ortalarınadək Avropa Komissiyasının nümayəndələri işin detallarını müzakirə etmək üçün Avropa ombudsmanının ofisi ilə görüşməlidirlər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur